**Ötən il sentyabrın 27-də uzun bir dövr ərzində davam edən ikili standartlara, eyni zamanda, Ermənistanın mütəmadi təxribatlarına son qoymaq üçün Azərbaycan Ordusu düşmənin ölkəmizə qarşı hücumuna əks həmlə əməliyyatı ilə cavab verməyə məcbur oldu və 44 günlük müharibə parlaq qələbəmizlə nəticələndi.**

*Uzun illərdən sonra biz işğala son qoyduq, düşməni öz torpağımızdan qovduq. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını şərəflə yerinə yetirdi. İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi və milli ruhumuzu göstərdi. Göstərdi ki, biz heç vaxt o vəziyyətlə barışmaq fikrində deyildik.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



# Azərbaycan tarix yazmaqda davam edir

Xalqımız İkinci Qarabağ müharibəsində “Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır”, – deyən Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi, bu inam, bu həmrəylik, birlik isə Vətən savaşında əldə edilən möhtəşəm uğurumuzu şərtləndirdi.

Bu, Azərbaycan və Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən imzalanan üçtərəfli bəyanatla təsdiqləndi. Beləliklə, ölkəmiz həm döyüş meydanında, həm də danışıqlar masası arxasında istəyinə nail oldu, Ermənistan–Azərbaycan münaqişəsinə son qoyuldu.

Prezident İlham Əliyev oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə Vətən müharibəsində hər bir yaşayış məntəqəsinin azad edilməsinin tarixi hadisə kimi qeyd edildiyini, ilk gündən başlayaraq müharibənin sonunadək Azərbaycan Silahlı Qüvvələrinin ancaq irəli getdiyini, zəfər yürüşünü uğurla həyata keçirdiyini bildirdi. Dövlətimizin başçısı daha sonra vurğuladı ki, o vaxt müəyyən qüvvələr Azərbaycanı bu ədalət mübarizəsindən çəkindirməyə cəhd göstərsələr də, ölkəmiz haqq yolundan dönmədi. Sadəcə Ermənistan qarşısında – “əgər düşmən bizə torpağımızdan çıxması ilə bağlı tarix verərsə, müharibəni dayandırmağa hazırıq və bu sözə də əməl etdik”,– kimi qətiyyətli mövqe bildirildi. Qəsbkar bu razılığa noyabrın 9-da gəldi, məğlubiyyətini etiraf etdi və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktını imzaladı.

Ermənistan işğal dövründə Qarabağda öz mənəviyyatını, əxlaqını nümayiş etdirib. Düşmən təcavüzkar siyasət yürütdüyü uzun illər ərzində şəhər və kəndlərimizi, infrastrukturu tamamilə dağıdıb, Azərbaycan xalqına məxsus daşınmaz tarix və mədəniyyət abidələrini – məscidləri, türbələri və digər inanc yerlərimizi xarabalığa çevirib, yeraltı, yerüstü təbii sərvətlərimizi talayıb. Bununla da o ərazilərdə yaşayan soydaşlarımızın bütün izlərini silməyə cəhd göstərib. İşğalçı bu kin-küdurəti ilə həm də xalqımıza dərin nifrətini ifadə edib. Bütün bunları nəzərdə tutan dövlətimizin başçısı çıxışlarının birində deyib: “Bunu hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib. Özü də Birinci Qarabağ müharibəsi dövründə yox, müharibədən sonra, məqsədyönlü şəkildə, barbar kimi, vəhşi kimi, vandal kimi, bir-bir evlərin kərpiclərini, daşlarını söküb aparıb özləri üçün daxmalar tikiblər”.

Ermənilərin yaşayış məntəqələrimizə, maddi-mədəni abidələrimizə düşmən münasibəti, insanlıqla bir araya sığmayan vəhşi əməlləri, barbarlığı bu gün Qarabağ və Şərqi Zəngəzurun demək olar ki, hər qarışında nəzərə çarpır.

Ermənistan Azərbaycan torpaqlarını ələ keçirməklə, şəhər və kəndlərimizi xaraba qoymaqla, maddi-mədəni, təbii sərvətlərimizi talan etməklə heç nəyə nail ola bilmədi. Prezident İlham Əliyevin vurğuladığı kimi, rəsmi İrəvanın işğalçı siyasəti Ermənistanı dərin tənəzzülə apardı.

Ermənistan hazırda böyük səhvə yol verdiyini anlayır. Lakin artıq gecdir. Bu səhvin buraxılmasından 30 illik bir zaman keçir. Bu müddətdə Ermənistanın yürütdüyü işğalçılıq siyasəti, Vətən müharibəsindəki acı məğlubiyyəti düşmən ölkəni dərin böhranla üzləşdirib. Hazırda Ermənistanın vəziyyəti müstəqilliyinin ilk illərindəkindən də ağırdır. Bu gün Ermənistanın ordusu belə yoxdur. Sosial-iqtisadi şəraiti gündən-günə pisləşir. Ölkə siyasi böhran keçirir. Bütün bu acınacaqlı durumun kökündə isə təbii ki, Azərbaycana qarşı işğalçılıq siyasəti dayanır.

Bu gün düşmən dövlətin 9 milyard dollardan çox dövlət borcu var. Bu, Ermənistan kimi kiçik və iqtisadiyyatı çökmüş bir ölkə üçün qorxunc rəqəmdir. Rəsmi İrəvanın Ermənistanın heç bir ciddi gəlir vəd etməyən iqtisadiyyatı hesabına belə nəhəng borcu ödəyə bilməsi qətiyyən inandırıcı görünmür. Paşinyan hökumətinin də ölkə iqtisadiyyatını “koma”dan çıxartmağa gücü çatmır. Bütün bunlar Ermənistanın mövcud iqtisadiyyatının düşdüyü durumu aydın təsəvvür etmək imkanı yaradır.

Amma Ermənistanın düşdüyü bu böhran bataqlığından çıxması üçün Azərbaycan və Türkiyə ilə anlaşmaqdan başqa çıxış yolu yoxdur. Rəsmi İrəvan Azərbaycanla qarşılıqlı olaraq, ərazi bütövlüyünü tanıdıqdan və yekun sülh sazişini imzaladıqdan sonra iqtisadi-ticari “nəfəslik” qazana bilər. Şübhəsiz ki, bu məsələdə Zəngəzur dəhlizinin də reallaşmasının diqqətdə saxlanması və bu layihənin gerçəkləşdirilməsinin gecikdirilməməsi mühüm önəm daşıyır.

Yeri gəlmişkən, Naxçıvan ilə Bakını bir-biri ilə birləşdirəcək Zəngəzur dəhlizinin bölgəyə gətirəcəyi rahatlığın və zənginliyin miqyasını təsəvvür etmək belə mümkün deyil. Yaranmış yeni reallıqlar Azərbaycan ilə birlikdə, Ermənistan üçün də yeni bir dövrün başlanğıcıdır. Zəngəzur dəhlizində fəaliyyətə başlayacaq dəmiryolu ilə ermənilər də rahatlıqla Rusiyaya və bütün dünyaya çıxış əldə edəcəklər. Beləliklə, ermənilər özləri özlərini saldıqları blokadadan, böhran bataqlığından xilas edə biləcəklər.

Azərbaycan isə qazandığı tarixi zəfərdən sonra bölgənin bərpası istiqamətində mühüm layihələr reallaşdırır, işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərini intensiv şəkildə aparır.

## Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurdakı möhtəşəm reallığın memarıdır



Erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi üçün Prezident İlham Əliyev tərəfindən qarşıya mühüm vəzifələr qoyulub. Dövlətimizin başçısı Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu barədə deyib: “Biz çox yaxşı təcrübə toplamışıq, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları uğurla icra edilir. Artıq bir neçə proqram icra edilmişdir və o təcrübədən faydalanaraq bu bölgədə, əlbəttə, çox düzgün planlaşdırma aparılmalıdır. Bir daha demək istəyirəm ki, infrastruktur layihələri ilə bağlı, evlərin tikintisi ilə bağlı, kəndlərin bərpası ilə bağlı artıq ilkin təkliflər var. Əsas budur ki, buraya qayıdacaq insanlar yaxşı yaşasınlar, yəni, onların rifahı yüksək olsun… Belə səfalı torpaqlarda ancaq yaxşı dolanışıq olmalıdır”.

Ölkə rəhbəri İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən oktyabrın 26-da Zəngilan rayonunda təməli qoyulan “Dost Aqropark” da gələcəkdə bu ərazidə məskunlaşan keçmiş məcburi köçkünlərin firavan həyatını şərtləndirəcək.

Xatırladaq ki, “Dost Aqropark” layihəsinin gerçəkləşməsi Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq. Layihə başa çatdıqda 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də, toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəni əhatə edəcək inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı sistemi qurulacaq. Bütün bunlar isə dövlətimizin başçısının vurğuladığı kimi, bu bölgəyə qayıdacaq insanların yaxşı yaşamalarına, rifahlarının yüksək olmasına əsaslı təsir göstərəcək.

Bölgədə əhalinin maddi durumunun, sosial şəraitinin yüksəlməsində önəmli rol oynayacaq digər bir layihənin də icra vəziyyətinə diqqət yetirək. Qardaş ölkələrin prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən “Ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə tanış olarkən, bildirildi ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. “Ağıllı kənd”də müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait yaradılacaq.

Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. “Ağıllı kənd təsərrüfatı”nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazinin 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. Burada “Ağıllı idarəetmə sistemi” data və təhlil mərkəzindən həyata keçiriləcək.

Bölgədə yol-nəqliyyat infrastrukturunun sürətlə reallaşdırılması, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi də regionun sosial-iqtisadi inkişafına əsaslı təsir göstərəcək. Bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə mühüm töhfə verəcək.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***